# DOST – sosial müdafiənin möhkəmlənməsində fəal iştirakçı




**Ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi hər zaman Prezident İlham Əliyevin apardığı siyasətin başlıca prioritetlərindən olub. Dövlət başçısının birbaşa rəhbərliyi altında pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi və məşğulluq sahələrində şəffaflığın və sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi ilə bağlı mühüm addımlar atılıb.**

Belə addımlardan biri barədə söhbət açmazdan əvvəl onu qeyd edək ki, dövlət başçısının islahatlar proqramına, habelə 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına uyğun olaraq hazırda respublikamızda dövlət sosial xidmətləri sisteminin mütərəqqi beynəlxalq təcrübəyə və innovativ yanaşmaya əsaslanan çevik mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq prinsiplərinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" (DOST Agentliyi) də yuxarıda adıçəkilən fərman əsasında yaradılıb. Sənəddə əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində xidmətlərin reallaşdırılmasını təmin edəcək DOST mərkəzlərinin yaradılması da nəzərdə tutulub. İlk belə mərkəz isə bu il mayın 9-da Yasamalda, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılıb. Xatırladaq ki, ötən müddətdə DOST Agentliyinin 1 saylı "DOST" mərkəzi 30 mininci vətəndaşı qəbul edib.

DOST Agentliyinin fəaliyyətində nəzərə çarpan məqamlardan biri də "İşsizin DOST"u proqramının uğurla həyata keçirilməsidir. Bu proqram əsasında işə cəlb olunanlar məşğulluq orqanlarında işsiz və işaxtaran kimi qeydiyyatda olan vətəndaşlar arasından müəyyən edilir. Məşğulluq mərkəzlərinin müvafiq göndərişi əsasında həmin şəxslərlə "DOST İş Mərkəzi"ndə əmək müqaviləsi bağlanılır və elektron informasiya sistemində qeydiyyatdan keçirilərək rəsmiləşdirilir. Bundan sonra hər bir işçi üçün sifariş olunan əməkhaqqı kartı bank tərəfindən yalnız vətəndaşın özünə şəxsiyyət vəsiqəsini təqdim etməsi şərti ilə verilir, kartı götürərkən vətəndaş bunu imzası ilə təsdiqləyir.

"İşə qəbul edilmiş şəxslərin siyahısı müvafiq rayon (şəhər) icra hakimiyyətlərinin yerli qurumlarına (Mənzil-Kommunal Təsərrüfatı birlikləri, yaşıllaşdırma, tikinti-təmir idarələri və s.) təqdim olunur və bu qurumlar onları ictimai işlərə cəlb edirlər. Bundan sonra həmin işçi qüvvəsinin işə davamiyyətinə, tapşırılan işləri yerinə yetirməsinə nəzarəti məhz həmin qurumlar icraçı qismində həyata keçirirlər. Yəni, "DOST İş Mərkəzi" ilə həmin qurumlar arasında bağlanan müvafiq sazişə əsasən işçi qüvvəsi "DOST İş Mərkəzi"nin rəsmi işçiləri hesab olunmasına baxmayaraq, onların nizam-intizamına və gündəlik fəaliyyətinə yerli icraçı qurumlar birbaşa cavabdehlik daşıyırlar.

Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin təşəbbüsü əsasında həyata keçirilən "İşsizin dostu" proqramı çərçivəsində 40 minədək işsiz və işaxtaran şəxs haqqı ödənilən ictimai işlərə cəlb edilib. Həmin işlərə sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və s. daxildir.

Ümumiyyətlə, DOST mərkəzlərinin yaradılması vasitəsilə dövlət xidmətlərinin geniş bir şəbəkəsinin - əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər müvafiq sahələr üzrə xidmətlər sisteminin "bir pəncərə"dən operativ, sadələşdirilmiş prosedurlarla, vətəndaş rahatlığı prinsipi əsasında təqdim olunmasına, xidmətlərin əhatə dairəsinin genişləndirilməsinə imkan verib.

Hazırda DOST mərkəzində "bir pəncərə" prinsipi ilə 130-dan çox elektron xidmət göstərilir. Bunların sırasına "Pensiya və sosial sığorta", "Sosial müavinətlər və təqaüdlər", "Əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat", "Sosial xidmətlər və övladlığa götürmə məsələləri", "Əmək münasibətləri", "Məşğulluq xidmətləri", "Sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri", "Bank və notarius xidmətləri" və digər xidmətlər daxildir.

Yeri gəlmişkən, DOST mərkəzləri fəaliyyətə başlayandan sonra bu qurumlara olunan müraciətlərlə əlaqədar bütün zəruri məlumatlar müvafiq orqanlardan, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bölmələrindən elektron qaydada əldə edilir və emalı reallaşdırılır. Prosesin gedişində hesabatlılıq və şəffaflıq təmin edilir. Vətəndaşların müvafiq məlumatlara çıxış imkanı artırılır. Onlara çevik hesabatvermə və şikayət, monitorinq və qiymətləndirmə mexanizmləri vasitəsilə prosesi izləmə imkanları yaradılır. Başqa sözlə, DOST mərkəzləri bu gün "bir pəncərə"dən göstərdiyi operativ, keyfiyyətli, şəffaf xidmətlərlə əlilliyi olan şəxslərin, aztəminatlı ailələrin, işsiz və işaxtaranların, pensiyaçıların DOST-u olduğunu qısa zaman ərzində təsdiqləyərək, ictimai məmnunluğun ünvanı kimi tanınır.

***"Xalq qəzeti"***